**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ VƏ ONUN TƏDRİSİ METODİKASI FƏNN

# P R O Q R A M I

İBTİDAİ SİNİF MÜƏLLİMLİYİ İXTİSASI ÜZRƏ

BAKALAVRİAT TƏHSİL SƏVİYYƏSİ ÜÇÜN

İxtisas şifri: 050107

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
18.10.2022-ci il tarixli iclasının F-599 saylı
əmrinə əsasən çap edilir.

**BAKI – 2022**

**ELMİ REDAKTOR:** **Rəhilə Əşrəf qızı Hümmətova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

**TƏRTİB EDƏNLƏR:** **Tamam Allahverdi qızı Mehrabova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

**Fəridə Akif qızı Səfərəliyeva**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Gültəkin Atəş qızı Abdullayeva**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Kamil Kamal oğlu Bəşirov**
Filologiya üzrə elmlər doktoru, dosent

**Ənvər Məhəmməd oğlu Abbasov**
Azərbaycan Respublikası Təhsil
İnstitutunun direktor müavini,
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent, əməkdar alim

# İzahat vərəqi

Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyev təhsil sistemində aparılan islahatla bağlı olaraq söyləmişdir: ”Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın. On illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Əgər bu yolla gedəriksə, qısa bir zamanda Azərbaycan təhsil sistemini dünya standartlarına çatdıra bilərik”.

Hazırda ölkəmizdə geniş vüsət almış təhsil islahatları, təhsilin məzmununun yeniləşdirilməsi, yeni metod və üsulların məktəbə gətirilməsi təlim-tərbiyə ocaqlarımızın müasirləşməsinə, dövrün tələblərinə cavab verə biləcək şəkildə qurulmasına əlverişli imkan və şərait yaratmışdır.

Ana dilinə məhəbbət, ana dilini mənimsəmək və bu dili mükəmməl bilməyin əsasları ümumtəhsil məktəblərində ibtidai siniflərdən başlanır. Şagirdlərin ana dilini dərindən və hərtərəfli öyrənmələri başqa fənlərin də elmi əsaslarını dərk etmək yollarını asanlaşdırır, onlarda dünyagörüşün formalaşmasına, mədəni səviyyənin inkişafına- bir sözlə, onların böyük həyata hazırlanmasına güclü təkan verir. Dilin mürəkkəb və səciyyəvi cəhətlərinin, dərin və gizli sirlərinin öyrənilməsi fikrin ifadəsi üçün ən qüvvətli vasitəyə çevrilir. Məhz buna görədir ki, böyük pedoqoqlar ilk təlim zamanı başqa fənlərin mənimsənilmə keyfiyyətinin ana dilini necə bilməkdən və ondan hansı səviyyədə istifadə olunmasından asılı hesab etmişlər. İbtidai təlimdə ana dilinin əsas və mərkəzi fənn sayılmasının səbəbi də məhz budur.

Gələcək ibtidai sinif müəllimlərinə dilçiliyin bütün şöbələri ilə bağlı nəzəri və praktik əhəmiyyətli məsələlər öyrədilməlidir. Yəni ali məktəblərdə gələcək ibtidai sinif müəllimlərinə dilçiliyin fonetika, leksikologiya, qrammatika şöbələri ilə yanaşı, ümumi dilçilik, Azərbaycan dilinin tarixi, onun inkişaf dövrləri, dialektləri, orfoqrafiya, qrafika, orfoepiya, üslubiyyat, mətnşünaslıq və digər

bölmələrə aid nəzəri və praktik əhəmiyyətli məlumatlar verilməlidir ki, gələcək fəaliyyətlərində onlardan bəhrələnə bilsinlər.

Azərbaycan dili fənni mühazirə və praktik məşğələlər vasitəsilə öyrədilir. Mühazirə mətnləri həyatla, məktəblə bağlanmalıdır. Mühazirələrdə tələbələri ibtidai siniflərdə tədris edilən mövzularla, məktəb proqramı və dərsliklərlə daha yaxından tanış etmək lazımdır.

Praktik məşğələlərdə əsas məqsəd mühazirədə çatdırılmış materialı daha da dərinləşdirməkdən, dil faktları və hadisələri üzərində tələbələrdə sərbəst işləmək bacarığı, əldə edilmiş nəzəri bilikləri tətbiq etmək vərdişi yaratmaqdan ibarətdir. Dil faktları üzərində aparılan təcrübi işlər tələbələrin ədəbi dil proqramlarını hərtərəfli dərk etmələrinə kömək edir, həmçinin məqsədyönlü şəkildə təşkil edilən linqvistik təhlil bacarıqlarının aşılanması onlarda elmi-dilçilik təfəkkürü formalaşdırır. Buna görə də təcrübi məşğələlərdə iş həm nəzəri dilçilik, həm də praktik istiqamətdə aparılmalıdır.

Təcrübi məşğələlərdə tələbələrin şifahi və yazılı nitq mədəniyyəti də inkişaf etdirilməlidir. Bunun üçün təcrübi məşğələlərdə tez-tez qrammatik inşalar, çalışmalar, linqvistik təhlillər, testlər və yazı işləri aparılmalıdır. Xüsusilə, təcrübi məşğələlər yeni tədris üsulları ilə aparılarsa, daha faydalı nəticələr əldə etmək olar. Tələbə özü tədqiqatçıya çevrilər, müxtəlif üsullar vasitəsilə lazım olan nəzəri məlumatı şüurlu şəkildə dərk edər, onu praktikada sınaqdan keçirər.

Praktik məşğələlərdə tələbələr müstəqil olaraq, lakin müəllimin ümumi rəhbərliyi ilə müvafiq plan və göstəriş əsasında dilçiliyin hər hansı şöbəsi üzrə nəşr olunmuş müxtəlif materiallar üzərində də işləməlidir. Belə bir üsul tələbəni müstəqilliyə alışdırır və onun nitq mədəniyyətinin hərtərəfli inkişafına kömək edir. Lazım gəldikdə müəllim proqramın sonunda verilmiş ədəbiyyat siyahısından əlavə olaraq tələbələrə başqa əsərləri, yeni çap olunmuş dilçilik ədəbiyyatı nümunələrini də oxumağı məsləhət görə bilər. Çünki dilimizin müxtəlif sahələri ilə bağlı onlarla yeni-yeni tədqiqat işləri yazılır. Tələbələri dilçilik sahəsində yeniliklərlə tanış etmək onların ümumi inkişafına yaxından kömək etmiş olar.

Dil cəmiyyətin hər bir üzvü üçün vacib olan ünsiyyət vasitəsidir. İnsanın biliklərə yiyələnməsi və tərbiyəsində dil təlim və tərbiyə işinin ən mühüm vasitəsi kimi özünü göstərir. Ana dilimizin inkişafında misilsiz rol oynayan Ümummilli lider Heydər Əliyev demişdir: “Ana dili bizim sərvətimizdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Hər bir xalq öz dili ilə yaranır, ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik sahiblərinin fəaliyyəti nəticəsində mümkün olur.”

İbtidai siniflərdə Azərbaycan dili təliminin əsas məqsədi şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirmək, bütövlükdə onların nitq mədəniyyətini formalaşdırmaqdan ibarətdir. “Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün Ana dili kurikulumu”nda qeyd olunur ki, ümümtəhsil məktəblərində ana dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla, şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. İbtidai təhsil səviyyəsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilk bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur.

“İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikası” fənninin predmetini təlim şəraitində şagirdlərin Azərbaycan dilinə yiyələnməsi prosesinin tədqiqi təşkil edir. Bu fənn vasitəsilə hər bir şagirddə bilik, bacarıq və vərdişlərin formalaşdırılması təmin olunur, təlim prosesində reallaşdırılacaq forma, metod, priyom və vasitələr, bunları seçməyin şərtləri, konkret dərs zamanı onlardan yaradıcılıqla istifadə etməyin yolları öyrədilir. Fənn elə tədris olunmalıdır ki, onu öyrənən tələbə təlim işindən müstəqil baş çıxara bilsin, bütün təlim metodlarına yaradıcılıqla yanaşa bilsin.

“Çərçivə Kurikulumu”nda fənnin tədrisi belə əsaslandırılır: “Bu fənnin təlimi nəticəsində Azərbaycan dili təliminin mövqeyi, vəzifələri, savad, qiraət

(oxu), yazı və hüsnxət, Azərbaycan dili təliminin, nitq inkişafının metodikası, ana dili təliminin qanunları, ana dili dərsliklərində istifadə edilən metod, yol və vasitələr, orfoqrafiya təlimi, ibtidai siniflərdə məzmuna dair bilik və bacarıqların verilməsi təmin olunur".

Ali pedaqoji təhsil və orta ixtisas təhsili müəssisələrinin ibtidai sinif müəllimi hazırlayan fakültələrində "İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikası" fənninin tədrisi olduqca zəruridir. Proqramdan ibtidai təhsil fakültəsinin tələbələri, magistrantlar faydalana bilərlər. İbtidai təhsil fakültəsində fənnin 3 semestr ərzində (180 saat) tədrisi nəzərdə tutulur.

**Məzmun kompetensiyaları:**

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı ünsiyyət bacarıqları;
- Informasiya texnologiyalarından istifadə etmək qabiliyyəti;
- Fəaliyyət və ya təhsil sahəsi ilə bağlı yeni problemlər aşkar etmək, onların müxtəlif həlli yollarını təhlil etmək, təhsil alanların irəliləyişinin, nailiyyətlərinin qiymətləndirilməsi, tərbiyəlilik səviyyəsini müəyyənləşdirmək və onlara emosional iradi təsir göstərmək bacarığı;
- Fəaliyyətini diaqnozlaşdırmaq, layihələrin həyata keçirilməsi zamanı təşəbbüskarlıq məsuliyyəti, liderlik və komandada işləmək bacarığı;
- Müxtəlif innovativ təlim resurslarından, texnologiyalarından istifadə etməklə ibtidai siniflərdə təlim prosesinin səmərəliliyini və keyfiyyətini yüksəltmək bacarığı.

**İxtisas kompetensiyaları:**

- Fəaliyyət və ya təhsil sahəsi ilə bağlı fakt, nəzəriyyə, qayda və metodları təhlil etmək, bir-biri ilə əlaqəli olan sahələrdə çətin tapşırıqların yaradıcı şəkildə həlli üçün biliklərdən istifadə etmək;
- Yeni yanaşma tətbiq etməklə mürəkkəb tapşırıqları yerinə yetirmək bacarığı;
- Pedaqoji situasiyaları və prosesləri dərk etmək, obyektiv qiymətləndirmək, peşə fəaliyyətində informasiya texnologiyalarından istifadə etmək, ümumi

və pedaqoji mədəniyyətə malik olmaq, öz təcrübəsini fərdi və qrup şəklində təhlil etmək bacarığı;

- Şagirdlər, onların valideynləri, həmkarları və tədris müəssisəsinin rəhbərliyi ilə pedaqoji cəhətdən məqsədyönlü ünsiyyət yaratmaq bacarığı;
- Sağlam və şəxsiyyətyönümlü təhsil mühiti formalaşdırmaq, şagirdlərin sosial bacarıqları, hərtərəfli şəxsi inkişafı üçün şərait yaratmaq bacarığı.

**Fənnin hədəfi:** Tələbələrə “İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikası” fənninin təsvirindən irəli gələn nəzəri məsələləri, Azərbaycan dili təliminin özünəməxsus xüsusiyyətlərini, inkişaf tarixini, qanunauyğunluqlarını, prinsiplərini, əsas tələblərini mənimsətmək, onların rabitəli nitqini inkişaf etdirmək, yeni təlim texnologiyalarından istifadə qaydalarını, dərslərin səmərəli təşkili yollarını öyrətmək və onları praktik cəhətdən həyata keçirmək bacarıqlarını aşılamaqdır.

**Fənnin məqsədi:** Tələbələrin dil qaydalarını mənimsəməsi və nitq mədəniyyətinin inkişafı istiqamətində məqsədyönlü tətbiqetmə bacarığının formalaşdırılması. Tələbələrə ibtidai siniflərdə savad təlimi, oxu, qrammatikanın, rabitəli nitqin tədrisi və inkişaf etdirlməsi yollarını öyrətmək.

**Fənn üzrə təlim nəticələri:**

- İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikasının xüsusiyyətlərini təsvir edir;
- Azərbaycan dili kurikulumunda (I-IV siniflərdə) məzmunu və standartı izah edir;
- Azərbaycan dilinin qrammatik quruluşunun əhəmiyyətini şərh edir;
- Nitq hissələrinin hər birinin qrammatik xüsusiyyətlərini müqayisə edir;
- Sintaktik əlaqələrin mahiyyətini və obyektiv gerçəklikdə olan əlaqələrlə uyğunluğunu izah edir;
- Sadə və mürəkkəb cümlənin oxşar və fərqli cəhətlərini müəyyənləşdirə bilir;
- Linqvistik təhlilin bütün növlərini sərbəst yerinə yetirə bilir;

- İbtidai siniflərdə Azərbaycan dili dərslərinin məzmunu, təşkili yolları, istifadə olunacaq metod və priyomları bilir;
- Təlim prosesində dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları üzrə bacarıqların mənimsədilməsində səmərəli metod və üsullarını izah edir;
- Şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi üzrə işin məqsəd və vəzifələrini bilir;
- Dil qaydalarının mənimsədilməsi zamanı seçilmiş metodun səmərəli olduğunu şərh edir;
- Təlim prosesində qazandığı bilikləri təcrübədə istifadə etmək üçün elmi-metodik cəhətdən təhlil edir;
- Müzakirə, diskussiya və digər tədbirlərin keçirilməsi məqsədi ilə yazılı rəy və təqdimat hazırlayır;
- Tədris prosesində düzgün metod və üsul seçməyin əhəmiyyətini dəyərləndirir.

**Proqramın təlim nəticələri ilə fənnin təlim nəticələri arasında əlaqə:** proqramda "İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikası" fənninin məqsəd və vəzifələri, təlim prinsipləri, I-IV siniflərdə məzmun xətləri üzrə Azərbaycan dilinin tədrisinin məzmunu verilir. Savad təlimi, oxu və yazı təlimi, orfoepiya, fonetika, morfologiya, sintaksis, orfoqrafiya, nitq inkişafı, lüğət işi, rabitəli nitq inkişafının inteqrativ tədrisi, tədrisdə istifadə edilən fəal təlim üsulları və İKT-dən istifadənin sistemli şəkildə tətbiq olunması üzrə işin məzmunu açıqlanır. Fənnin təlim nəticələri proqramın təlim nəticələri ilə üzvi şəkildə əlaqələnir.

Proqramda fənnin tədrisinə ayrılan saatlar mövzular üzrə paylanmış, tövsiyə olunan ədəbiyyat siyahısı təqdim olunmuşdur.

**Qiymətləndirmə metodları (mərhələlər üzrə):** Qiymətləndirmə üsulları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilir və təkmilləşdirilir. Tədris prosesində fərdi qiymətləndirmə üsullarından geniş istifadə

edilir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesində fəal rol oynamasını təşviq edir.

Tədris prosesində tələbələrin biliklərini yazılı tapşırıqlar; sorğular; açıq müzakirələr; praktiki məşğələ və laboratoriya məşğələlərində müşahidələrə əsasən tələbələrin bacarıqlarının qiymətləndirilməsi; kürs işi; sərbəst (müstəqil) işlərin qiymətləndirilməsi; sifahi və yazılı cavablar; qrup şəklində və özünü qiymətləndirmə; təqdimatlar, prezentasiyalar, testlər.

**Təlim prosesində aşağıdakı tədris və öyrənmə metodlarından istifadə edilir:** mühazirə, praktik məşğələlər; təqdimatlar, müzakirələr və debatlar; sərbəst (müstəqil) iş; problemə əsaslanan tədris; qrup qiymətləndirməsi; distant təhsil.

## 1. Dil haqqında anlayış. Azərbaycan dilinin türk dillərin arasında yeri. Ədəbi dil və danışıq dili.

Azərbaycan dilinin türk dilləri arasında yeri. Dilin tarixi haqqında qısa məlumat.

Ümumxalq Azərbaycan dilinin tərkib hissələri haqqında. Ədəbi dil və danışıq dili. Azərbaycan ədəbi dilinin şifahi və yazılı formaları.

## 2. Ədəbi dilin üslubları. Azərbaycan dilinin dialekt və şivələri.

1) Bədii üslub, 2) elmi üslub, 3) ictimai-publisistik üslub, 4) rəsmi-işgüzar üslub, 5) epistolyar üslub, 6) şifahi danışıq üslubu

Azərbaycan dilinin inkişafında görkəmli yazıçıların və milli mətbuatın rolu.

Azərbaycan danışıq dili və onun xüsusiyyətləri.Azərbaycan dilinin dialekt və şivələri, onların xüsusiyyətləri, dialekt və şivələrin qrupları.

Azərbaycan ədəbi dili ilə danıŞıq dilinin fərqləri və əlaqəsi.

## 3. Azərbaycan dilinin fonetikası

Fonetika haqqında ümumu məlumat. Fonetikanın əhəmiyyəti. Ümumi və xüsusi fonetika. Fonetikanın növləri: a) tarixi fonetika b) müqayisəli fonetika

c)təsviri fonetika. Fonetik tədqiqatın metodları: a) fərdi müşahidə(subyektiv) b) təcrübi, yaxud eksperimental. Fonetik transkripsiya.

## 4. Müasir Azərbaycan dilinin səs (fonemlər) sistemi

Danışıq üzvlərinin bölgüsü. Danışıq səsi və fonem anlayışı. Müasir Azərbaycan ədəbi dilinin fonetik vahidləri və vasitələri.

Sait səslərin sistemi. Saitlərin bölgüsündənəzərə alınan prinsiplər- dilönü və dilarxası, dodaqlanan və dodaqlanmayan, açıq və qapalı saitlər. Saitlərin ümumi xarakteristikası.

Samitlərin təsnifi prinsipləri. Əmələgəlmə yerinə, üsuluna, səs tellərinin vəziyyətinə və tərkibinə görə samitlərin təsnifi. Samitlərin ümumi xarakteristikası.

## 5. Azərbaycan dilindəki fonetik hadisə və qanunlar

Assimilyasiya, dissimilyasiya, səs artımı (proteza), səs düşümü (eliziya), yerdəyişmə (metateza). Ahəng qanunu:

1.Saitlərin ahəngi

2.Samitlərin ahəngi

3.Saitlərlə samitlərin ahəngi

## 6. Heca. Vurğu. Orfoepiya haqqında məlumat

Hecanın növləri:açıq və qapalı, örtülü və örtüsüz heca. Hecanın tipləri.

Vurğu. Vurğunun növləri: heca, məntiqi və həyəcanlı (emfatik) vurğu.

Orfoepiya haqqında məlumat. Orfoepiyanın orfoqrafiya ilə əlaqəsi. Orfoepiyanın əhəmiyyəti. Azərbaycan dili orfoepiyasının formalaşması və inkişafı.

1.Saitlərin tələffüzünə aid qaydalar.

2.Samitlərin tələffüzünə aid qaydalar.

3. Bəzi qrammatik formaların tələffüzünə aid qaydalar.

## 7. Yazı. Orfoqrafiya haqqında məlumat

Yazı haqqında məlumat. Yazının mənşəyi və tiplərinə dair məlumat. Yazının tipləri və inkişafı. Azərbaycan yazısının tarixinə dair.

Azərbaycan əlifbasının tarixinə dair qısa məlumat. Azərbaycan qrqfikasının bəzi əsas xüsusiyyətləri.

Azərbaycan dili orfoqrafiyasının tarixinə dair qısa məlumat. Azərbaycan dili orfoqrafiyasının tərtibi prinsipləri: fonetik prinsip, morfoloji prinsip, ənənəvi prinsip.

Şəkilçilərin yazılışı. Sözlərin bitişik, defislə və ayrı yazılması. Sözlərin baş hərflərinin böyük yazılması, ixtisar edilən sözlərin və qısaltmaların yazılışı, sözün sətirdən sətrə keçirilməsi qaydaları və s.

### 8. Leksikologiya. Azərbaycan ədəbi dilinin lüğət tərkibi. Sözün xüsusiyyətləri.

Dilin lüğət tərkibi haqqında anlayış. Azərbaycan dilinin lüğəvi vahidləri. Dilin lüğət tərkibindəki sözlərin cəminin leksika, sabit birləşmə və ifadələrin cəminin isə frazeologiya adlanması.

Leksika anlayışı. Leksikologiyanın növləri. Sözün daxili və zahiri cəhəti. İlkin və törəmə sözlər. Qohum sözlər. Ümumu və xüsusi sözlər. Qədim və yeni, kommunikativ və ekspressiv sözlər. Səs təqlidi sözlər. Saf və hibrid sözlər.

### 9. Mənşə cəhətdən müasir Azərbaycan dilinin leksik tərkibi.

Leksik tərkibin iki qrupa bölünməsi. 1. Xalis Azərbaycan sözləri:

a) Türk dilləri ilə ortaqlı sözlər

b) Türk və monqol dilləri ilə ortaqlı sözlər

c) Xalis Azərbaycan sözləri. Azərbaycan sözlərinin xüsusiyyətləri.

2. Alınma sözlər. Alınma söz anlayışı. Sözlərin alınmasının forma və yolları. Alınma sözlərin taleyi. Azərbaycan dilində alınma sözlər:

a) Ərəb mənşəli sözlər

b) Fars mənşəli sözlər

c) Slavyan mənşəli sözlər

d) Avropa mənşəli sözlər

e) Qafqaz mənşəli sözlər

Adi və beynəlmiləl alınma sözlər. Azərbaycan dilində alınma sözlərin mənimsədilməsi:a)heç bir dəyişiklik edilmədən mənimsənilən alınma sözlər b)dəyişiklik edilərək mənimsənilən alınma sözlər. Alınma sözlərə münasibət.

**10. Müasir Azərbaycan dilində işlənən söz qrupları**

Ümumişlək, poetik, köhnəlmiş sözlər. Köhnəlmiş sözlərin təsnifi. Köhnəlmiş sözlərin üslubi rolu. Neologizmlər. Terminlər. Loru və vulqar sözlər. Arqo və jarqon sözlər. Sənət və peşə sözləri. Ekzotik sözlər. Varvarizmlər.

**11. Azərbaycan onomastikası anlayışı.**
**Onomastik leksikanın üslubi imkanları**

Müasir Azərbaycan ədəbi dilinin omomastik sistemi. Onomastik leksikanın təsnifi:

1) Antroponimlər

2) Etnonimlər

3) Toponimlər

4) Hidronimlər

5) Zoonimlər

6) Kosmonimlər

7) Ktematonimlər

Onomastik vahidlərin yaranması və dəyişməsi. Onomastik vahidlərin poetikası. Onomastik vahidlərin düzgün deyilişi və yazılışı.

**12.Semasiologiya. Azərbaycan ədəbi dilinin semantik sistemi. Sözün mənası.**

Tam və natamam məna. Sözün məna quruluşu. Sözün lüğəvi və qrammatik mənaları. Sözün mənasının dəyişməsi və inkişafı. Sözün mənasının daralması və

genişlənməsi. Sözün məcazi mənada islənməsi. Məcazlar, onların növləri. Sözlərin tək və çoxmənalılığı.

**13. Sözlərin mənaca qrupları**

Omonimlər. Omonim anlayışı haqqında. Omonimlərin çoxmənalı sözlərdən fərqi. Omonimlərin tipləri. Leksik omonimlərin əmələ gəlməsi.Omonimlərin üslubi imkanları.

Sinonimlər və onların tipləri. Leksik sinonimlər, onların əmələ gəlməsi və nitqdə üslubi rolu. Sinonimik cərgə. Antonimlər haqqında anlayış. Antonimlərin məna növləri. Tam və nisbi antonimlər. Antonimlərin əmələgəlmə yolları və bədii nitqdə üslubi rolu. Paronimlər. Paronimlərin omonimlərlə müqayisəsi. Tabu sözlər və evfemizmlər. Onların nitqdə işlənməsi və üslubi imkanları.

**14. Azərbaycan ədəbi dilinin frazeologiyası**

Frazeoloji vahid anlayışı. Frazeoloji vahidlərin xüsusiyyətləri. Azərbaycan dili frazeoloji vahidlərinin tipləri:

a) frazeoloji qovuşma

b) frazeoloji birlik

c) frazeoloji birləşmə

Frazeoloji (sabit) ifadə və ibarələr. Frazeoloji vahidlərin mənaca növləri:

a) Omonim frazeoloji vahidlər

b) Sinonim frazeoloji vahidlər

c) Antonim frazeoloji vahidlər

Frazeoloji vahidlərin nitqdə yaratdığı üslubi imkanlar.

**15. Derivatalogiya. Azərbaycan dilində sözyaratma anlayışı və yolları.**

Azərbaycan ədəbi dilinin leksik və frazeoloji tərkibinin zənginləşmə mənbə və yolları. Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinin daxili imkanlar əsasında zənginləşməsi. Dildə yeni söz və ifadələrin leksik, semantik, morfoloji və sintaktik üsullarla yaradılması yolları.

Dialekt və şivələrdən söz və ifadə götürülməsi ilə lüğət tərkibinin zənginləşməsi. Ədəbi dilin lüğət tərkibinin lüğəvi alınmalar hesabına zənginləşməsi.

**1. Müasir Azərbaycan dilinin qrammatik quruluşu.**

**Morfologiya haqqında məlumat. Sözün morfoloji tərkibi**

Azərbaycan dilinin qrammatikası dilimizin qrammatik quruluşundan bəhs edən şöbədir. Qrammatikanın növləri: tarixi, müqayisəli, təsviri. Qrammatik məna və forma anlayışı.

Qrammatikanın hissələri: morfologiya və sintaksis. Morfologiya sözlərin qrammatik təbiəti, tərkibi və dəyişməsi haqqında təlimdir. Sözün morfoloji tərkibi. Kök və şəkilçi morfemlər. Şəkilçilərin xüsusiyyətləri:

1. Məna növünə görə-leksik və qrammatik
2. Mənşəyinə görə-milli və alınma
3.Sözdəki mövqeyinə görə-ön və son
4. Sözyaratma qabiliyyətinə görə- məhsuldar və qeyri-məhsuldar.

**2. Nitq hissələrinin təsnifi prinsipləri. İsim.**

Azərbaycan dilindəki nitq hissələrinin tərkibi. Əsas (isim, sifət, say, əvəzlik, feil, zərf), köməkçi nitq hissələri(qoşma, bağlayıcı, ədat, modal sözlər), xüsusi nitq hissələri(nida, yamsılama, imperativ sözlər). Dildəki sözlərin bu və ya digər nitq hissələrindən başqa bir nitq hissəsinə keçməsi halları və bunun səbəbləri.

Kateqoriya anlayışı. Ümumi və xüsusi kateqoriyalar. İsim haqqında məlumat. İsmin lüğəvi məna qrupları, morfoloji əlaməti və sintaktik vəzifəsi. Ümumi və xüsusi, konkret və mücərrəd isimlər. İsimlərdə kəmiyyət, hal, mənsubiyyət və şəxs kateqoriyaları və onların üslubi məqamları.

**3. Sifət. Say**

Sifət haqqında ümumi məlumat. Sifətin digər nitq hissələri arasında yeri və fərqləri. Sifətin lüğəvi məna növləri, quruluşu,əsli və nisbi (törəmə) sifətlər. Sifətin

dərəcələri, substantivləşməsi, daimi və müvəqqəti substantivləşmə. Sifətin sintaktik vəzifəsi.

Sayların mənası,morfoloji əlaməti və sintaktik rolu. Sayların mənaca növləri:

1) Miqdar sayları (müəyyən, qeyri-müəyyən, kəsr və təqribi sayları)

2) Sıra sayları

Sıra saylarının sifətlə oxşar və fərqli cəhətləri. Sayların substantivləşməsi. Bəzi sayların üslubi məqamları.

**4. Əvəzlik. Zərf. Quruluşu və məna növləri.**

Əvəzlik haqqında məlumat. Əvəzliyin başqa nitq hissələrinə münasibəti və cümlədə rolu. Əvəzliyin mənaca növləri: şəxs əvəzliyi, işarə əvəzliyi, sual əvəzliyi, qeyri-müəyyən əvəzlik, təyini əvəzlik, inkar əvəzliyi. Əvəzliyin sintaktik rolu və üslubi imkanları.

Zərf haqqında məlumat. Zərfin başqa nitq hissələrinə münasibəti. Zərfin quruluşca və mənaca növləri. Sintaktik vəzifəsi.

**5. Feil haqqında məlumat. Feilin qrammatik məna növləri.**

Feilin lüğəvi məna qrupları, səciyyəvi cəhətləri. Feilin quruluşca növləri. Təsdiq, inkar, təsirli və təsirsiz feillər. Sintaktik vəzifəsi.

Məlum, məchul, qayıdış, icbar, qarşılıq-birgəlik və şəxssiz növ feillər.

**6. Feilin təsriflənən və təsriflənməyən formaları.**

Əmr, xəbər, arzu, lazım, vacib, şərt, davam və bacarıq formaları.

Məsdər və onun xüsusiyyətləri. Məsdərin isimlə və feillə oxşar və fərqli cəhətləri. Məsdərin sintaktik vəzifəsi.

Feili sifətin feillə və sifətlə oxşar və fərqli cəhətləri. Feili sifət yaradan şəkilçilər və onların yaratdığı zaman anlayışı. Feili sifətin sintaktik vəzifəsi.

Feili bağlamanın feillə və zərflə oxşar və fərqli cəhətləri. Feili bağlama şəkilçiləri. Feili bağlamanın sintaktik vəzifəsi.

**7. Köməkçi və xüsusi nitq hissələri**

Köməkçi nitq hissələrinin xüsusiyyətləri. Qoşma, qrammatik rolu, inkişafı. Qoşmanın məna növləri. Qoşmanın üslubi imkanları. Bağlayıcı haqqında məlumat. Bağlayıcıların mənaca növləri. Bağlayıcıların orfoqrafiyası və üslubi imkanları. Ədat haqqında məlumat, qrammatik xüsusiyyətləri. Ədatların mənaca növləri. Ədatların orfoqrafiyası və üslubi imkanları.

Modal sözlər. Modallıq anlayışı. Modal sözlərin mənaca növləri və üslubi imkanları. Yamsılamalar və ya təqlidi sözlər, qrammatik xüsusiyyətləri və üslubi imkanları**.** Nida. Yaranmasına görə nidaların qrupları. Bədii nitqdə nidaların yaratdığı üslubi məqamlar.

**8. Sintaksis və onun predmeti. Sintaktik əlaqələr.**

Sintaksis sərbəst söz birləşməsi və cümlə haqqında qrammatik təlimdir. Sintaktik əlaqələr. Sintaktik əlaqənin növləri. Tabesizlik və tabelilik əlaqələri. Tabelilik əlaqəsinin növləri. Uzlaşma, idarə və yanaşma əlaqələri.

**9. Söz birləşmələri. İsmi və feili birləşmələr.**

Sərbəst və sabit söz birləşmələrinin oxşar və fərqli cəhətləri. Söz birləşməsi və söz. Söz birləşməsi və cümlə. Sərbəst söz birləşmələrinin növləri. İsmi birləşmələr və onun növləri, quruluşu. Feili birləşmələr. Feili sifət, məsdər və feili bağlama birləşmələri və tərkibləri. Cümlənin ritmik bölgülərinin müəyyənləşməsində feili və ismi birləşmələrin rolu.

**10. Məqsəd və intonasiyaya görə cümlənin növləri.**

Cümlənin quruluşu. Cümləni formalaşdıran əlamətlər: intonasiya, predikativlik və modallıq. Cümlənin məqsəd və intonasiyaya görə növləri.

1. Nəqli cümlə
2. Əmr cümləsi
3. Sual cümləsi
4. Nida cümləsi

**11. Cümlə üzvləri. Baş üzvlər.**

Sadə cümlə haqqında məlumat. Sadə cümlənin xüsusiyyətləri. Cümlə üzvləri, baş üzvlər, ikinci dərəcəli üzvlər. Baş üzvlər: Mübtəda**.** Ümumi məlumat. Mübtədanın ifadə vasitələri. Leksik ifadə vasitələri (nitq hissələri ilə), sintaktik ifadə vasitələri(sərbəst və sabit söz birləşmələri ilə, tərkiblərlə). Xəbər**.** Ümumi məlumat. Xəbərin quruluşu və ifadə vasitələri. İsmi və feili xəbərlər. Xəbərin mübtəda ilə uzlaşması. Mübtəda ilə xəbərin cümlədəki sıralanmasının üslubi imkanları.

**12. Cümlənin II dərəcəli üzvləri.**

Tamamlıq haqqında məlumat. Tamamlığın məna növləri: vasitəli və vasitəsiz tamamlıqlar. Tamamlığın ifadə vasitələri.

Təyin haqqında məlumat. Təyinin quruluşu və ifadə vasitələri. Tamamlıq və təyinin cümlədə sıralanmasının üslubi məqamları.

Zərflik haqqında məlumat. Zərfliyin məna növləri: tərzi-hərəkət (müqayisə, tərz, dərəcə, keyfiyyət), zaman, yer, kəmiyyət, səbəb, məqsəd, şərt və qarşılıq-güzəşt zərflikləri. Zərfliyin quruluşu və ifadə vasitələri.

**13. Sadə cümlənin struktur-semantik tipləri.**

Təktərkibli və cüttərkibli cümlələr. Müxtəsər və geniş cümlələr. Təktərkibli cümlənin şəxsə görə növləri: qeyri-müəyyən şəxsli cümlələr, ümumi şəxsli cümlələr, şəxssiz cümlələr.

Adlıq cümlələr. Söz cümlələr. Onların oxşar və fərqli cəhətləri. Bütöv və yarımçıq cümlələr. Yarımçıq cümlələrin təktərkibli cümlələrdən fərqi. Yarımçıq cümlənin növləri.

**14. Mürəkkəb cümlə sintaksisi. Tabesiz mürəkkəb cümlələr.**

Mürəkkəb cümlə haqqında məlumat. Mürəkkəb cümlənin sadə cümlədən fərqi. Mürəkkəb cümlənin növləri. Mürəkkəb cümləni bağlayan vasitələr.Tabesiz

mürəkkəb cümlələr. Bağlayıcılı və bağlayıcısız tabesiz mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlənin komponentləri arasında məna əlaqələri: zaman, ardıcıllıq, səbəb-nəticə, qarşılıq-ziddiyyət, yer, aydınlaşdırma, bitişdirmə əlaqələri.

**15. Tabeli mürəkkəb cümlə. Baş və budaq cümlə və növləri.**

Tabeli mürəkkəb cümləni bağlayan vasitələr. Tabeli mürəkkəb cümlənin quruluşu, baş və budaq cümlə. Budaq cümlənin növləri. Mübtəda və xəbər budaq cümlələri, onları bağlayan vasitələr və tipləri.

Tamamlıq budaq cümləsinin növləri. Təyin budaq cümləsi. Tamamlıq və təyin budaq cümlələrini baş cümləyə bağlayan vasitələr. Zərflik budaq cümləsinin növləri: zaman, tərzi-hərəkət, yer, kəmiyyət, dərəcə, səbəb, məqsəd, şərt, qarşılaşdırma.

## 1. İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikasının ümumi məsələləri

İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikasının əhəmiyyəti, məqsəd və vəzifələri. Azərbaycan dilinin tədrisi metodikası bir elm kimi. Azərbaycan dili və onun tədrisi metodikası ibtidai siniflərdə əsas təlim fənni kimi.

Azərbaycan dilinin tədrisi metodikasının başqa elmlərlə əlaqəsi. Azərbaycan dilinin tədrisi metodikasının mənbələri. Azərbaycan dilinin tədrisi metodikasının elmi tədqiqat metodları.

## 2. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi tarixinə dair

Azərbaycan dilinin tədrisi metodikasının keçdiyi inkişaf yolu. Ana dilində ilk məktəb və dərsliklər haqqında ümumi məlumat: İlk öyrənmə metodları; "Üsuli-cədid" məktəbləri; İlk dərsliklər. Azərbaycan dilinin tədrisi metodikasının inkişafında görkəmli maarifçilərin rolu.

Azərbaycan dilinin tədrisi metodikası elminin inkişaf dövrləri: Azərbaycan dilinin tədrisi inkişafının birinci mərhələsi (1920-1931-ci illər). Azərbaycan dili tədrisinin ikinci dövrü (1933-1957-ci illər). Azərbaycan dilinin tədrisi metodikasının inkişafının üçüncü dövrü (1958-1969-cu illər).

1970-ci ildən sonra Azərbaycan dilinin tədrisi metodikasının inkişafı. İbtidai siniflər üzrə proqram, dərslik və dərs vəsaitlərinin tərtibi.

## 3. Kurikulum. İbtidai siniflərdə Azərbaycan dili fənn kurikulumu

Kurikulum (yeni təhsil proqramı), strukturu, məzmunu. Fənyönümlü və şəxsiyyətyönümlü kurikulumlar. Kurikulumda ibtidai təhsil üzrə ümumi təlim nəticələri. İbtidai siniflərdə ana (Azərbaycan) dili fənn kurikulumu, əhəmiyyəti, məqsəd və vəzifələri.

Məzmun xətləri (dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları). Məzmun standartları (əsas və alt standartlar). Müasir dərsə verilən tələblər.

Azərbaycan dili dərslərində inteqrasiya imkanları. Fəndaxili və fənlərarası inteqrasiya.

**4. Fəal (interaktiv) dərsin quruluşu**

Fəal (interaktiv) təlim anlayışı. Motivasiyanın yaradılması yolları. Fəal (interaktiv) dərsin strukturu (quruluşu). Fəal (interaktiv) dərsin ənənəvi dərslə müqayisəsi.

Fənn kurikulumu üzrə müasir dərsin mərhələləri: Motivasiya (problemin qoyulması, fərziyyələrin irəli sürülməsi); Tədqiqatın aparılması (fərziyyələri yoxlamaq üçün tapşırıqların həlletmə prosesində məlumatların, faktların axtarılması və toplanılması); Məlumat mübadiləsi (əldə edilmiş məlumatların təqdim olunması); Məlumatların müzakirəsi və təşkili (məlumatın müzakirəsi, təsnifi, əlaqələndirilməsi); Nəticələrin çıxarılması (nəticələrin fərziyyələrlə müqayisəsi və onların təsdiq olunub-olunmaması haqqında nəticənin çıxarılması); Produktiv (yaradıcı) tətbiqetmə; Qiymətləndirmə və ya Refleksiya (hər mərhələdə aparıla bilər).

Azərbaycan dili üzrə proqram materiallarının planlaşdırılması. Fənn üzrə təlimin planlaşdırılması, formaları, metod və priyomları, tədris vahidinin prinsipləri. Perspektiv (illik) və cari (gündəlik) planlaşdırma. Perspektiv planlaşdırma aparmaq məqsədilə müəllim üçün zəruri hesab edilən bacarıqlar

**5. İbtidai siniflərdə istifadə olunan yeni təlim texnologiyaları**

Azərbaycan dilinin tədrisində fəal (interaktiv) təlim metodu. Azərbaycan dili dərslərində tətbiq olunan yeni təlim üsulları: Akvarium; Auksion; Anlayışın çıxarılması; BİBÖ; Beyin həmləsi; Karusel; Klaster (şaxələndirmə); Mühazirə; Müzakirə; Problemli vəziyyət; Layihələrin hazırlanması; Qərarlar ağacı; Rollu oyunlar; Söz assosiasiyaları; Venn diaqramı; İnsert üsulu; Ziqzaq üsulu.

Fəal (interaktiv) təlimdə iş formaları – fərdi, cütlərlə, böyük və kiçik qruplarla iş. Yeni təlim strategiyaları müasir fənn kurikulumunun tərkib hissəsi kimi.

Fəal (interaktiv) təlimdə qiymətləndirmə, üsulları və növləri. Qiymətləndirmənin vəzifəsi və obyekti. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması qaydası. Müasir qiymətləndirmənin ənənəvi qiymətləndirmə ilə müqayisəsi

**6. İbtidai siniflərdə Azərbaycan dili dərslikləri ilə işin xüsusiyyətləri**

Müasir dərslik komplektləri, onların mahiyyəti. I sinif “Azərbaycan dili” dərslik komplekti: dərslik, müəllim üçün metodik vəsait, iş dəftəri, valideyn bələdçisi. II, III, IV siniflər üçün “Azərbaycan dili" dərslik komplekti: dərslik, müəllim üçün metodik vəsait (MMV), iş dəftəri.

I sinif “Azərbaycan dili”, II sinif “Azərbaycan dili”, III sinif “Azərbaycan dili”, IV sinif “Azərbaycan dili” dərsliklərinin təhlili.

**7. Savad təliminin metodikası**

Savad təliminin məqsəd və vəzifələri. Azərbaycan dilinin səsləri və onların hərflərlə ifadə olunma qaydası (fonetika və qrafika). Oxunun mövqeliliyi prinsipi. Heca tələffüz və oxu vahididir. Oxu vərdişinin inkişafı psixologiyası. I sinif şagirdlərinin psixoloji xüsusiyyətləri və onların təliminə verilən pedaqoji tələblər (diqqət, hafizə, təfəkkür, iradə).

Savad təlimi metodlarının tarixindən: Hərf-heca metodu; heca metodu; səs metodu; bütöv sözlər metodu; səs-təhlil-tərkib metodu. Savad təlimi prosesində səs və sözlərin seçilməsinə verilən tələblər

**8. Savad təlimi məşğələlərinin sistemi**

Savad təlimi prosesinin dövrləri: əlifba təliminə hazırlıq dövrü, əlifba təlimi dövrü, əlifba təlimindən sonrakı dövr. Savad təlimi dövründə qarşıya qoyulan əsas standartlar və ümumi məqsədlər. Şagirdlərə ilkin oxu və yazı bacarıqlarının aşılanması. Savad təlimi dövründə keçilən dərs nümunələri.

Oxu və və yazı texnikasının təkmilləşdirilməsi. Savad təlimi dövründə ilk qrammatik və orfoqrafik biliklərin verilməsi. Savad təlimi dövründə istifadə olunan əyani vasitələr və didaktik materiallar. Didaktik oyunlar. Savad təlimi dövründə şagirdlərin nitq və təfəkkürünün inkişafı.

**9. Yazı təliminin metodikası**

Yazı təliminin məqsəd və vəzifələri. Yazının ictimai mahiyyəti. Yazı – ana dili kurikulumunun üçüncü məzmun xətti kimi. I sinifdə əsas məqsəd uşaqlarda yazı texnikasının formalaşdırılması və inkişafıdır.

Yazı ləvazimatı. Şagirdlərin əl-bilək əzələlərinin yazıya hazırlanması. Yazıya hazırlıq çalışmaları. Yazının şriftləri. Yazıda mailliyin və rabitəliliyin gözlənilməsi. Yazıya verilən texniki tələblər: ayrı-ayrı hecalarda hərflərin eninə və hündürlüyünə görə bərabərliyi, hərflər və sözlər arasında məsafənin, sətir xəttinin gözlənilməsi.

Yazı dərsinin quruluşu. Yazıya verilən gigiyenik, kalliqrafik, orfoqrafik və rabitəlilik tələbləri. Hüsnxət təliminin çətinlikləri. Yazılışı çətin sözlər üzərində iş. Yazıda buraxılan səhvlərin hesaba alınması.

**10. Oxu təliminin metodikası**

Oxu təliminin əhəmiyyəti, məqsədi və vəzifələri. Oxu- təhsilin bünövrəsi, hərəkətverici qüvvəsi kimi. Oxu materialının tematikası və xarakteri. Bədii və elmi-kütləvi mətnlər. Müxtəlif janrlardan olan bədii əsərlər: hekayələr, nağıllar, təmsillər, şeirlər.

Oxu vərdişlərinin inkişafına verilən başlıca tələblər: oxunun düzgünlüyü, oxunun şüurluluğu, oxunun optimal surəti, oxunun ifadəliliyi. Şagirdlərdə düzgün, sürətli, şüurlu və ifadəli oxu vərdişinin formalaşdırılması.

Oxu dərslərində əyanilik. Strategiyalı oxu- oxu materialının düşünərək oxusu. Sinifdənxaric oxunun metodikası.

**11. Fonetikanın tədrisi metodikası**

İbtidai siniflərdə fonetikanın tədrisinin mahiyyəti və əhəmiyyəti. Səs və hərf haqqında anlayışın verilməsi. Şagirdlərin Azərbaycan dilinə yiyələnməsində fonetik biliklərin rolu. Səs və hərflərin öyrədilməsi ilə əlaqədar aparılan işlərin orfoepiya və orfoqrafiya ilə əlaqələndirilməsi.

Danışıq səslərinin bölgüsü və təsnifi prinsipləri: dilin və dodaqların vəziyyətinə görə saitlərin, səs tellərinin vəziyyətinə görə samitlərin təsnifi.

Ahəng qanunu, heca, əlifba, vurğudan istifadəyə dair ilk elmi-praktik vərdişlərin yaradılması yolları. Heca haqqında anlayışın verilməsi. Vurğulu və vurğusuz heca anlayışı.

Fonetikanin tədrisi prosesində orfoepiya və orfoqrafiya üzrə praktik biliklərin aşılanması. Fonetik təhlilin aparılması.

**12. İbtidai siniflərdə morfologiyanın tədrisi metodikası**

İbtidai siniflərdə leksikanın tədrisi. Sözün leksik mənası, yaxınmənalı və əksmənalı sözlər. Sözün həqiqi və məcazi mənası.

Morfologiyadan verilən biliklərin məzmunu və həcmi. Sözün tərkibi, kök və şəkilçi haqqında məlumat.

Nitq hissələrinin tədrisi məsələləri. Əsas və köməkçi nitq hissələri haqqında məlumatın verilməsi. İsim, sifət, sayın öyrədilməsi yolları. Əvəzlik, feil, zərfin tədrisi metodikası. Köməkçi nitq hissələri haqqında ümumi anlayışın yaradılması.

**13. İbtidai siniflərdə sintaksisin tədrisi metodikası**

Cümlə və onun tərkibi haqqında anlayış. Cümlə üzvləri haqqında anlayış. Məqsəd və intonasiyaya görə cümlənin növləri.

Cümlənin baş üzvlərinin tədrisi metodikası. Cümlənin ikinci dərəcəli üzvlərinin tədrisi metodikası. Sadə və mürəkkəb cümlə anlayışının formalaşdırılması.

Sintaktik və morfoloji biliklərin əlaqəli öyrədilməsi. Bu zaman sintaktik təhlilin imkanlarından istifadə. Morfoloji və sintaktik sualların fərqləndirilməsi.

**14. Orfoqrafiya təliminin metodikası. Yazılı çalışmaların növləri**

Orfoqrafiya təliminin əhəmiyyəti. Azərbaycan dili orfoqrafiyasının prinsipləri. Orfoqrafiya təliminə təsir göstərən amillər. Düzgün tələffüzün orfoqrafiya ilə əlaqəli tədrisi.

Yazılışı çətin olan sözlər üzərində işin təşkili. Orfoqrafiya təliminə həsr olunmuş məşğələlərin təşkiliinə verilən tələblər. Orfoqrafik çalışmaların ümumi xarakteri.

İmlalar və növləri. Öyrədici və yoxlama imlaların aparılması metodikası. İmla yazılardakı səhvlərin təshihi və səhvlər üzərində işin təşkili metodikası. Orfoqrafik təhlil.

**15. Şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi**

İbtidai siniflərdə şagirdlərin nitqinin inkişaf etdirilməsi üzrə işin məqsəd və vəzifələri. Şagirdlərin şifahi və yazılı nitqi. Nitq inkişafı üzrə işin istiqamətləri. Lüğət üzrə işin xüsusiyyətləri: lüğətin zənginləşdirilməsi, lüğətin dəqiqləşdirilməsi; lüğətin fəallaşdırılması; lüğətin təmizliyi.

Ədəbi tələffüz üzrə işin təşkili. Şagirdlərin tələffüzü üzərində fəal nəzarət. Ədəbi tələffüz üzrə aparılan işlərin məzmunu və praktik əhəmiyyəti. Ədəbi tələffüz üzrə aparılan işlin yolları. Ədəbi tələffüz təliminə əks-təsir göstərən mənbələr (dialekt və şivə tələffüzü, orfoqrafik və hərfi tələffüz).

Cümlə qurmaq vərdişlərinin yaradılması. Düzgün cümlə qurmaq vərdişləri üzrə aparılan işin formaları və təşkili metodikası. Cümlə qurmaq vərdişlərinin inkişafında ədəbi dilin normalarının rolu. Bu istiqamətdə aparılan işlərin çalışmalarla möhkəmləndirilməsi.

Rabitəli nitq üzrə işin təşkili metodikası. Rabitəli nitqin mahiyyəti və növləri. İfadə təlimi. İnşa təlimi. İfadə və inşalarda buraxılan səhvlərin təshihi və aradan qaldırılması yolları. Əməli yazılar. İbtidai siniflərdə esselərin yazılması üzrə işin təşkili.

# ƏDƏBİYYAT


1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1958
2. Abdullayev A. Kərimov Y. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı: Maarif, 1968
3. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, Elm və təhsil, 2015
4. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili (IV cild). Bakı, 2007
5. Abdullayev A., Nəbiyeva Ş., Abdullayeva G. Ali təhsilin bakalavriat səviyyəsində müəllim hazırlığı üzrə "Ana dilinin tədrisi metodikasi" fənninin kurikulumu. Bakı: ADPU, 2017
6. Abbasov Ə. və b. Pedaqoji texnologiyalar. Bakı, "Mütərcim", 2006
7. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. ARTPİ-nin Elmi əsərləri, 2008, №1
8. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ana dili kurikulumu (I-IV siniflər). Bakı, 2007
9. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). "Kurikulum" jurnalı, 2008-ci il, № 1
10. Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəlliminin hazırlığı üzrə Çərçivə Kurikulumu. Bakı, 2008
11. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Maarif, 2014.
12. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU, 2016
13. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı, 2007
14. Dəmirçizadə Ə. Müasir Azərbaycan ədəbi dili. I hissə. Bakı, 2007
15. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1987
16. Hümmətova R. Ana dili –II. Bakı, 2019
17. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2007
18. Xəlilov B. Müasir Azərbaycan dili. Bakı, 2007

19. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2008
20. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I-II hissə. Bakı, 2000-2003
21. İbtidai siniflər üçün "Azərbaycan dili" fənnindən dərslik komplektləri. Bakı, 2015, 2016
22. Kazımov Q. Müasir Azərbaycan dili (sintaksis). Bakı, 2000
23. Kazımov Q. Müasir Azərbaycan dili (morfologiya). Bakı, 2010
24. Kərimov Y. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2013
25. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2003
26. Nəbiyeva Ş., Abdullayeva G., Kərimova A. Ana dilinin tədrisi metodikası fənnindən mühazirələr. Bakı: Elm və təhsil, 2015
27. Rəhimov A. Ana dilinin tədrisi metodikası. Bakı, Maarif, 1997
28. Seyidov Y. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2000
29. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008
30. Veysova Z. Fəal (interaktiv) təlim. Müəllim üçün vəsait, UNİSEF, 2009